# Milli Kitabxananın 100 illiyi qeyd edilib

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının 100 illik yubileyi münasibətilə keçirilən silsilə tədbirlərin iştirakçıları sentyabrın 20-də Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər. Əvvəlcə xalqımızın Ümummilli lideri Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub, güllər düzülüb. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üstünə tər çiçəklər qoyulub.

Sonra Şəhidlər xiyabanına gələn tədbir iştirakçıları Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər güllər qoyulub, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən tədbir iştirakçıları Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.



Azərbaycan Milli Kitabxanasında dünya milli kitabxanalarının rəhbərlərinin iştirakı ilə "Milli kitabxanalar xalqların mənəvi yaddaşının qoruyucusudur" mövzusunda beynəlxalq elmi-praktik konfransın açılış mərasimi keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Qarabağda lokal antiterror tədbirləri nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Azərbaycan Milli Kitabxanasının 100 illiyinə həsr olunmuş videoçarx təqdim olunub.

Konfransı giriş sözü ilə mədəniyyət naziri Adil Kərimli açıb. Sonra konfrans plenar iclaslarla davam edib.

Plenar iclasda Milli Məclisin Mədəniyyət Komitəsinin sədri, professor Qənirə Paşayeva, Türkiyə Milli Kitabxanasının İnzibati işlər şöbəsinin müdiri Filiz Berna Gültekin, Rusiya Dövlət Kitabxanasının baş direktoru Vadim Duda, elm və təhsil nazirinin müavini Firidun Qurbanov, Milli Məclisin deputatı, akademik Nizami Cəfərov, Özbəkistan Milli Kitabxanasının direktoru Umida Teşabayeva, Roma Mərkəzi Milli Kitabxanasının direktoru Stefano Kampanyolo çıxış ediblər.